# Azərbaycan - Seneqal münasibətləri

**Qısa tarixi məlumat:**

İki ölkə arasında diplomatik əlaqələr 1996-cı ilin martın 14-də qurulmuşdur. Azərbaycan ilə Seneqal arasında əlaqələr əsasən BMT və İƏT çərçivəsində mövcud olmuşdur. Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin 13 iyul 2012-ci il tarixli Sərəncamı ilə S.M.Ağabəyov Azərbaycan Respublikasının Qambiya Respublikasında fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırılmış və 11 dekabr 2012-ci il tarixli sərəncamına əsasən Azərbaycan Respublikasının Mərakeş Krallığında fövqəladə və səlahiyyətli səfiri Tarik İsmayıl oğlu Əliyev igamətgahı Rabat şəhərində olmaqla, eyni zamanda Azərbaycan Respublikasının Seneqal Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin olunmuşdur.

**Yüksək səviyyəli qarşılıqlı səfərlər:**

**22-23 oktyabr 2007-ci il -** Bakıda İslam Əməkdaşlığı Təşkilatına üzv ölkələrin hüquq-mühafizə orqanları rəhbərlərinin konfransına hazırlıq üçün ekspertlər səviyyəsində keçirilmiş görüşdə iştirak etmək üçün Seneqalın Səudiyyə Ərəbistanı Krallığındakı səfiri Mühəmmədü Dudu Lu, Ədliyyə Nazirliyinin Cinayət İşləri üzrə Direktor müavini Keyin Suleymani, Daxili İşlər Nazirliyinin polis rəhbəri Ka Hudu, Daxili İşlər Nazirliyinin polis zabiti Tumani Sadio, Narkotik Trafikinə qarşı Mübarizə üzrə Mərkəzi Xidmətin Rəisi, Polis Superintendantı (Müdiri) Abdullayi Nianqın Azərbaycana səfərləri;

**29-31 yanvar 2008-ci il** - Seneqal Respublikasının Prezidentinin Katibliyinin Baş katibi, İƏT Milli Agentliyinin İcraçı direktoru A.Baldenin başçılıq etdiyi nümayəndə heyətinin Azərbaycana səfəri;

**13-14 mart 2008-ci il** - İƏT (İKT)-in Dakarda keçirilmiş 11-ci sammitində iştirak etmək məqsədilə Azərbaycan Respublikasının Xarici İşlər naziri E.Məmmədyarovun başçılıq etdiyi nümayəndə heyətinin Seneqala səfəri;

**13-15 oktyabr 2009-cu il** - İƏT-ə üzv dövlətlərin mədəniyyət nazirlərinin Bakı şəhərində keçirilmiş VI konfransında iştirak etmək məqsədilə Seneqalın Nazirliyinin texniki məsləhətçisi Mame Balla Mbaken rəhbərlik etdiyi nümayəndə heyətinin Azərbaycana səfəri;

**25-26 aprel 2013-cü il** - Bakıda keçirilmiş İslam Əməkdaşlıq Təşkilatına üzv ölkələrin Əmək nazirlərinin ikinci iclasında Seneqalın Ümumi Xidmət, Əmək və Təşkilatlarla iş üzrə naziri Mansur Sy iştirak etmişdir.

**<u>Müqavilə-hüquq bazası:</u>**

Azərbaycan Respublikası ilə Seneqal Respublikası arasında baxılmaqda olan sənədlərin sayı - 5.

*Son yenilənmə tarixi: 14.08.2013*